**Azərbaycan Respublikasının Energetika Nazirliyində elektron sənəd dövriyyəsinin tətbiqinə başlanılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 avqust tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 7.2.4.2-ci yarımbəndinin və "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanının 5-ci hissəsinin icrası məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. 2019-cu il 3 yanvar tarixindən Azərbaycan Respublikasının Energetika Nazirliyində elektron sənəd dövriyyəsinin tətbiqinə başlanılsın.
2. Ümumi şöbə bu əmrin surətinin Nazirliyin Aparatının bütün struktur bölmələrinə və tabeliyində olan quruma çatdırılmasını təmin etsin.
3. Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə həvalə edilsin.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

3 yanvar 2019-cu il
№ F-3